ƏSLİ İLƏ DÜZDÜR

AZƏRBAYCAN RESPUBLİKASI
BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYONU İCRA HAKİMİYYƏTİNİN BAŞÇISININ

# SƏRƏNCAMI

№ 57 «30» aprel 2020 il

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının inzibati və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərində kargüzarlığın aparılması işini, o cümlədən sənədlərin hazırlanmasını, qeydiyyatını, hərəkətini, icrasını, uçotunu və arxivə verilməsini tənzimləmə işlərinin yoxlanılması barədə**

Rayon icra hakimiyyəti başçısının inzibati və sahə inzibati ərazi dairələri üzrə nümayəndələrinin yerli icra hakimiyyəti başçısının tapşırıqlarını yerinə yetirməsi, vəzifə və səlahiyyətlərinə aid olan məsələlərin icra vəziyyəti, əhalinin sosial əhəmiyyətli sifarişlərini öyrənilməsi sahəsində görülmüş işlərin vəziyyəti, ərazidə olan yaşayış evləri və çoxmənzilli yaşayış binalarındakı mənzillər üzrə təsərrüfatbaşına uçot kitablarının aparılması vəziyyəti, habelə təsərrüfat üzvlərinin və müvəqqəti yaşayan şəxslərin siyahısını aparılması vəziyyəti, "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada vətəndaşların qəbulunu həyata keçirmə vəziyyətinin, onların ərizə, şikayət və təkliflərinə baxmaq, lazımi tədbirlər görmək və nəticəsi barədə vətəndaşlara məlumat verilməsi vəziyyətinin, ərazidə yaşayan vətəndaşlara onların şəxsiyyətini, ailə vəziyyətini təsdiq edən arayışlar və digər arayışlar verilməsi vəziyyətinin, "Kargüzarlığın aparılmasına dair"Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli, 347 nömrəli Sərəncamı ilə "Təlimatın" icra vəziyyətinin yoxlanılması məqsədmüvafiq hesab edilmişdir.

Əsasnamədə nəzərdə tutulan səlahiyyət və vəzifələrin icrası, görüləcək işlərin davamlılığının təşkil edilməsi, cari və perspektiv iş planının müəyyən edilməsi məqsədilə "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.1.7, 6.9 və 6.8-ci bəndlərini nəzərə alaraq

**Qərara alıram:**

Rayon İcra Hakimiyyəti başçısı inzibati və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərində "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan

CS CamScanner ile tarandı

publikasının Qanununun tələbləri və "Kargüzarlığın aparılmasına dair" Azərbaycan spublikası Prezidentinin 2000-ci il 6 mart tarixli, 347 nömrəli Sərəncamı ilə Təlimatın" icra vəziyyətinin yoxlanılması məqsədi ilə komissiya yaradılsın.

**Komissiyanın sədri:**

Rayon İcra Hakimiyyəti başçısı Aparatının
Sənədlərlə və vətəndaşların müraciətləri
ilə iş şöbəsinin müdiri — Sabir Əliyev

**Komissiyanın üzvləri**

Rayon İcra Hakimiyyəti başçısı Aparatının
Sənədlərlə və vətəndaşların müraciətləri
ilə iş şöbəsinin məsləhətçisi — Kamran Quliyev

Rayon İcra Hakimiyyəti başçısı Aparatının
Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları
ilə iş şöbəsinin böyük məsləhətçisi — İbrahim Soltanov

3. Komissiya tapşırılsın ki, RİH başçısının inzibati və sahə inzibati ərazi dairələri üzrə nümayəndələrinin verilmiş tapşırıqlarını yerinə yetirməsi, vəzifə və səlahiyyətlərinə aid olan məsələlərin icra vəziyyəti, əhalinin sosial əhəmiyyətli sifarişlərini öyrənilməsi sahəsində görülmüş işlərin vəziyyəti, ərazidə olan yaşayış evləri və çoxmənzilli yaşayış binalarındakı mənzillər üzrə təsərrüfatbaşına uçot kitablarının aparılması vəziyyəti, habelə təsərrüfat üzvlərinin və müvəqqəti yaşayan şəxslərin siyahısını aparılması vəziyyəti, "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada vətəndaşların qəbulunu həyata keçirmə vəziyyətinin, onların ərizə, şikayət və təkliflərinə baxmaq, lazımi tədbirlər görmək və nəticəsi barədə vətəndaşlara məlumat verilməsi vəziyyətinin, ərazidə yaşayan vətəndaşlara onların şəxsiyyətini, ailə vəziyyətini təsdiq edən arayışlar və digər arayışlar verilməsi vəziyyətinin, "Kargüzarlığın aparılmasına dair" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli, 347 nömrəli Sərəncamı ilə "Təlimatın" icra vəziyyəti yoxlanılsın.

4. Yoxlama zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqlar barədə Rayon İcra Hakimiyyəti başçısına arayış təqdim edilsin.

5. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Elxan Allahverdiyev**

CamScanner